**1966-cı ildə ADMİU-nun kulturologiya fakültəsini bitirib, Zərdab Rayon Mədəniyyət Şöbəsində baş metodist vəzifəsində işləyirdim. Elə həmin ili uşaq musiqi məktəbinə ucaboy, çox yaraşıqlı, hər bir kəsin həsəd aparacağı dərəcədə, istər mənəvi, istərsə də xarici görkəmcə gözəl bir tar müəllimi də təyinatla həmin məktəbə gəldi.**

# İstedad və zəhmət

**O yanvar ayına kimi işləmişdi ki, valideynlərin şöbəyə axını başladı. Onların hamısı öz uşaqlarını Musa müəllimin sinfinə keçirmək istəyirdilər. Musa Musayev təkcə musiqi məktəbində tar müəllimi kimi deyil, eyni zamanda rayonun mədəni həyatında da aparıcı rol oynayırdı.**



Onun rəhbərlik etdiyi "Kür" ansamblı az bir müddətdə nəinki Zərdabda, eyni zamanda qonşu rayonlarda da ad-san qazandı. Musa müəllimin təşkilatçılığı və bacarığı sayəsində rayonun bədii özfəaliyyət kollektivləri inkişaf etdirildi. Rayonda keçirilən "Kənd günləri", "Muğam axşamları", rəqs, mahnı və muğam yarışmaları yeni istedadların üzə çıxmasına səbəb olurdu.

Bu gün respublikamızda ad-san qazanmış müğənni Sakif Məmmədov, əməkdar artist Ədalət Məmmədov böyük səhnəyə ilk qədəmlərini məhz Musa Musayevin xeyir-duası ilə atmışlar. Musa müəllimin dərs dediyi şagirdlərin də nailiyyətləri az olmamışdır. Onun bir vaxtlar dərs dediyi Şahin Talıb oğlu Bayramov 1969-cü ildə Mingəçevirdə keçirilən respublika musiqi məktəblərinin müsabiqəsində I dərəcəli diploma layiq görülmüşdür.

Musa müəllim 1970-ci ildə Bakı şəhərinə gəlmiş və burada 20 saylı musiqi məktəbində tar ixtisası üzrə müəllim işləmişdir. Lakin o, təbiət vurğunu olduğu üçün Bakı şəhərində çox qala bilməmiş, 1971-ci ildə öz xahişi və nazirliyin təyinatı ilə Ağsu rayon uşaq musiqi məktəbində tar müəllimi kimi fəaliyyətə başlamışdır.

Musa müəllim Zərdabda olduğu kimi Ağsuda da rayonun bütün mədəni həyatında da yaxından iştirak edir. M.Musayev burada da uşaqların uğurlar qazanması üçün əlindən gələni edir və əsasən də buna nail olur. Onun yetirmələrindən olan Şirin Nəbiyev, Sərdar Mirzəyev, Adilə Muradova və başqaları hazırda Ağsu Uşaq Musiqi Məktəbində öz sevimli müəllimi ilə çiyin-çiyinə çalışırlar. Musa müəllimin dərs dediyi uşaqların əksəriyyəti Respublika müsabiqələrində də nailiyyətlər əldə edirlər. Belə ki, uşaqlardan Arzu Əliyev 1980-ci ildə Göyçayda keçirilən müsabiqədə diploma layiq görülmüşdür.

Rövşən Teymur oğlu Həsənzadə isə sevimli müəlliminin sənətini davam etdirir. O, hazırda A.Zeynallı adına Musiqi texnikumunda tar ixtisası üzrə I kursda oxuyur.

2009-cu il hörmətli Prezidentimiz İlham Əliyevin sərəncamı ilə "Uşaq ili" elan olunmuşdur. Bununla əlaqədar olaraq rayonda keçirilən müsabiqədə Musa Musayevin dərs dediyi uşaqlardan Elçin Novruzov II dərəcəli, Əmrah Vaqif oğlu Orucov III dərəcəli diploma layiq görülmüşlər.

Bütün bu nailiyyətlərin nəticəsidir ki, Musa müəllim rayon rəhbərliyinin, nazirliyin və şöbənin fəxri fərmanları ilə təltif olunmuşdur.

Musa müəllimin tərcümeyi-halından bir yarpaq.

Musayev Musa Əziz oğlu 14 yanvar 1944-cü ildə Qərbi Azərbaycanın İrməzdin rayonunun Yuxarı Necili kəndində anadan olmuşdur. 1959-cu ildə 7-ci sinfi bitirib. Elə həmin il Bakı şəhər 2 saylı sənət məktəbinə daxil olmuşdur. 1961-ci ildə həmin məktəbi bitirib. Yusif Qasımov adına zavodda fəhlə işləmişdir. 1962-ci ildə Bakı Mədəni-Maarif texnikumunun "Xalq çalğı alətləri" şöbəsinin tar sinfinə daxil olmuşdur. 1966-cı ildə texnikumu bitirib təyinatla Zərdab Uşaq Musiqi Məktəbində fəaliyyətə başlamışdır.

1970-ci ildə Bakı şəhərində 20 saylı musiqi məktəbində işini davam etdirmişdir.

1971-ci ildən M.Musayev Ağsu rayon Musiqi Məktəbində fəaliyyətini davam etdirir.

**M.Musayev 1987-ci ildə ADİU-ya daxil olmuş, 1992-ci ildə isə universiteti metodist-müəllim kimi bitirmişdir...**

**Zabit CAVADOV**